azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 06 (34) ● İyun 2015-ci il

www.azersu.az

Ãàéíàð õÿòò - 955

“Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir”

İlham Əliyev

Birinci Avropa Oyunları uğurla başa çatmışdır

səh. 2-3

Mehriban Əliyeva: Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi

Birinci Avropa Oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir

səh. 4-5

Su təsərrüfatı və meliorasiya işçiləri peşə bayramını qeyd etmişdir

səh. 6-7

6 kəndin içməli su problemi həll edilmişdir

səh. 9,10,11

Birinci Avropa Oyunları uğurla

Azərbaycanda səbirsizliklə gözlənilən anın - birinci Avropa Oyunlarının açılışının həyəcan və sevincini yaşadı. Bakı Olimpiya Stadionuna toplaşmış 68 min nəfər, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular. Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunmuşdur.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamlamışdılar.

Oyunların açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdimməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri də vardı.

Sonra komandaların paradı başladı. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Ardınca digər ölkələrin idmançıları arenaya daxil oldular. İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar.

Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Birinci Avropa Oyunlarının açılışı münasibətilə Azərbaycan xalqını səmimi qəlbdən təbrik etdi: ***"Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır".***

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxışında "Bakı-2015"-i uzun yolun ən vacib nöqtəsi adlandırdı: ***"Bu, Azərbaycan xalqı üçün indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz".***

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarını açıq elan etmişdir. Stadionun ətrafında atəşfəşanlıq başlanmışdır.

başa çatmışdır

17 gün davam edən yarşılardan sonra iyunun 28-də Bakı Olimpiya Stadionunda Birinci Avropa Oyunlarının rəsmi bağlanlş mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Bolqarıstan Prezidenti Rosen Plevneliyev, Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin, Lixtenşteyn parlamentinin sədri Albert Frik, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələri, Avropa Olimpiya ailəsinin üzvləri iştirak etmişlər.

Mərasimdə çıxış edən Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Birinci Avropa Oyunlarının uğurla başa çatması münasibətilə Prezident İlham Əliyevi, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, təşkilat komitəsinin üzvlərinin təbrik etmişdir: ***"Ötən 17 gün Azərbaycanın tarixində əlamətdar və yaddan çıxmaz günlər oldu. Biz ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi. Son 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq. Mən Oyunlara və atletlərə verdiyi böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bütün xalq öz atletləri ilə qürur duyur. Onlar bütövlükdə 56 medal, o cümlədən 21 qızıl medal qazanmış, ümumi medallar cədvəlində isə ikinci yeri tutmuşlar. Azərbaycan atletləri, Sizin uğurunuz gələcək nəsillər üçün bariz nümunədir. Son 17 gün hər zaman xatirimizdə qalacaq. O, nəsillərə qalacaq, tarixi-mizin yaddaqalan məqamı olacaq".***

Avropa Olimpiya Komitəsinin Prezidenti Patrik Hikki Birinci Avropa Oyunlarının bütün aspektlərinin möhtəşəm olduğunu, hər şeyin uğurla başa çatdığını bildirdi: ***"Avropa Oyunlarını gələcəkdə "Bakı 2015"-in standartlarına uyğunlaşdıracağıq. "Bakı-2015" gözlənildiyindən, təsəvvür edildiyindən də möhtəşəm alındı. Bir çox ev sahibi şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi".***

17 gün davam etmiş Birinci Avropa Oyunlarında 253-ü qızıl, 253-ü gümüş, 338-i bürünc olmaqla, ümumilikdə 844 medalın sahibi bəlli oldu. Yarışlarda iştirak edən 50 ölkədən yalnız 8-i (Lüksemburq, Malta, Bosniya və Herseqovina, Andorra, Albaniya, İslandiya, Lixtenşteyn və Monako) oyunları medalsız başa vurub.

Rusiya milli komandası 79 qızıl, 40 gümüş və 45 bürünclə komanda hesabında birinci, Azərbaycan 21 qızıl, 15 gümüş və 20 bürünclə ikinci, Böyük Britaniya 18 qızıl, 10 gümüş və 19 bürünc medalla üçüncü olmuşdur.

	Ölkə	Qızıl	Gümüş	Bürünc	Cəmi
1	Rusiya	79	40	45	164
2	Azərbaycan	21	15	20	56
3	Böyük Britaniya	18	10	19	47
4	Almaniya	16	17	33	66
5	Fransa	12	13	18	43
6	İtaliya	10	26	11	47
7	Belarus	10	11	22	43
8	Ukrayna	8	14	24	46
9	Hollandiya	8	12	9	29
10	İspaniya	8	11	11	30

Birinci Avropa Oyunları ölkəmiz

İyunun 29-da birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüş keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişdirlər. Əvvəlcə birinci Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimlərini, yarışlarda ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olunmuşdur.

Birinci Avropa Oyunlarının ölkəmiz və Avropa üçün tarixi hadisə olduğunu bildirən Prezident İlham Əliyev bu münasibətlə tədbir iştirakçılarını və bütün Azərbaycan xalqını təbrik etmişdir: "Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir. 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitələrinin qərarı ilə birinci Oyunların keçirilməsi qərarı qəbul edilmişdir və bu şərəfli missiya bizim üzərimizə düşmüşdür. Bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara və ilk növbədə Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikkiyə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Məhz cənab Patrik Hikkinin təşəbbüsü

Prezident İlham Əliyev: *"Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır"*

ilə bu Oyunlar baş tutdu. Bu Oyunların keçirilməsində iştirak etmiş bütün insanlara bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu qərardan sonra Azərbaycanda gərgin iş başlamışdır. Təşkilat Komitəsi, Beynəlxalq Əməliyyat Komitəsi yaradılmışdır. Hamımız yaxşı dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimlərində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək. Əlbəttə ki, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa Oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində, Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır".

Oyunların hazırlanmasında Beynəlxalq Əməliyyat Komitəsinin - BEGOC-un rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev Oyunları yüksək səviyyədə keçirməsində onların böyük rolu olduğunu bildirmişdir: "Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Könüllülər bir daha onu göstərdi ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki

və Avropa üçün tarixi hadisədir

burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir, - baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil, - nədir bunun sirri? Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır. Bu Oyunlar imkan verdi ki, biz özümüzü göstərək. Bizi istəməyən qüvvələr bəzi hallarda bunu bizə irad tuturdular ki, Azərbaycan Oyunları keçirməklə özünü göstərmək istəyir. Bu, təbiidir. Əlbəttə, hər bir ölkə özünü göstərmək istəyir. İnkişaf etmiş ölkələr, hansılar ki, dəfələrlə bu səviyyəli tədbirləri keçirmişlər. Onlar da özlərini göstərmək istəmişlər. Yəni, burada heç bir qəbahət yoxdur. Bəli, bizim göstərə biləcəyimiz nümunələr həddindən artıq çoxdur. Biz Azərbaycanı dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi göstərmişik. Bu Oyunlar cəmiyyətdə nadir bir əhval-ruhiyyə yaratdı. Bu, əvvəllər də var idi. Yəni, cəmiyyətimiz milli ideyalar, milli maraqlar uğrunda çox fəal hərəkət edir. Ancaq bu Oyunlar xalqımızı bir daha birləşdirdi. Bir daha bizi qürurlandırdı ki, görün, biz nəyə qadirik".

İdmançılarmızın uğurlarına toxunan Prezident İlham Əliyev onların qələbələrinin bu Oyunları daha da böyük zirvəyə qaldırdığını bildirmişdir: "Mən tam əminəm ki, bəlkə burada oturanlar və ümumiyyətlə ictimaiyyət arasında yəqin müxtəlif fərziyyələr var idi ki, bizim komandamız neçənci yeri tutacaq. Amma bəlkə heç kim inanmırdı ki, bu, ikinci yer olacaqdır. Bu, tarixi qələbədir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin qələbəsidir. Əziz idmançılar, mən sizi öpürəm, bağrıma basıram. Sağ olun. Bu günlər ərzində hamımız yəqin ki, bir neçə dəfə kövrəldik. Hamımızın elə unudulmaz anları olmuşdur ki, bunu sözlə təsvir etmək çətindir. Qələbə sevinci, qürur hissi, idmançılarımızın rəşadəti, gücü, xalqımızın birliyi, bütün bunlar heç vaxt yadımızdan çıxmayacaq.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram".

"Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov çıxış edərək Oyunların yüksək səviyyədə təşkilində fəal dəstəyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişdirlər. Sonra mükafatlandırma mərasimi olmuşdur. Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi barədə Prezident İlham Əliyevin 2015-ci il 29 iyun tarixli sərəncamı oxunmuşdur. Dövlət başçısı "Heydər Əliyev" ordenini Mehriban Əliyevaya təqdim etmişdir.

Eyni zamanda mərasimdə "Bakı-2015" birinci Avropa Oyunlarının keçirilməsində xüsusi xidmətləri olan şəxslərin, həmçinin Avropa Oyunlarında uğurla çıxış edən idmançıların, onların məşqçilərinin, idman federasiyaları sədrlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Şöhrət", "Dostluq", 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri və "Tərəqqi" medalı ilə təltif edilmələri barədə Prezident İlham Əliyevin 2015-ci il 29 iyun tarixli sərəncamları oxunmuşdur.

Su təsərrüfatı və meliorasiya işçiləri

İyunun 5-də su təsərrüfatı və meliorasiya işçiləri peşə bayramını qeyd etmişdir. Prezident İlham Əliyevin 14 may 2014-cü ildə imzaladığı Sərəncamla iyun ayının 5-i "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi təsis edilmişdir. Bu münasibətlə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişlər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla yad edən su təsərrüfatı işçiləri daha sonra Şəhidlər xiyabanını ziyarət etmişlər.

"Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı münasibəti ilə Bakı Biznes Mərkəzində "Meliorasiya və su təsərrüfatının inkişafında Heydər Əliyev ideyalarının rolu" mövzusunda Elmi-Praktiki Konfrans keçirilmişdir. Əvvəlcə tədbir iştirakçıları su təsərrüfatı və meliorasiya sektorunda görülmüş işlərə həsr olunmuş stendlərlə tanış olmuş, daha sonra bu sahədə nailiyyətlərdən bəhs edən filmlər nümayiş etdirilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Aqrar siyasət məsələləri şöbəsinin müdiri Azər Əmiraslanov su təsərrüfatı və meliorasiya sistemində səmərəli fəaliyyəti nəzərə alınaraq bir qrup əməkdaşının Prezident İlham Əliyevin imzaladığı Sərəncamlarla təltif edildiyini bildirmiş, təbriklərini çatdırmışdır. A.Əmiraslanov son illər su təsərrüfatı və meliorasiya sahəsində irimiqyaslı layihələrin həyata keçirildiyini xatırladaraq bu sahədə görülmüş işlərinin qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətli olduğunu vurğulamışdır.

Konfrans məruzələrlə işini davam etdirmişdir. Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Məmməd Sadıq Quliyev "Meliorasiya və su təsərrüfatının dayanıqlı inkişafı Heydər Əliyev kursunun uğurlu davamının nəticəsidir", "Azərsu" ASC "Sukanal" Elmi Tədqiqat Layihə İnstitutunun direktoru Yaşar Kəlbiyev "Su təchizatı layihələrinin icrasında beynəlxalq əməkdaşlıq", Meliorasiya və Su Təsərrüfatı ASC-nin şöbə müdiri Əjdər Cavadov "2015-ci "Kənd təsərrüfatı ili"ndə meliorasiya və su təsərrüfatı sahəsində qarşıda duran işlər uğurla davam etdirilir", "Azərsu" ASC-nin departament rəisi Bahadır Kəngərli "Azərbaycan Respublikası regionlarının su təchizatında yeni mərhələ", Elmi Tədqiqat Su Problemləri İnstitutunun direktoru Elçin Qənbərov "Azərbaycanın su ehtiyatları və onların səmərəli istifadəsinin elmi əsasları" mövzularında məruzə ilə çıxış etmişlər.

Konfransın yekununda Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə meliorasiya və

peşə bayramını qeyd etmişdir

su təsərrüfatının inkişafında ulu öndər Heydər Əliyevin böyük tarixi xidmətləri olduğunu vurğulamışdır: *"Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci*

illərdə bu sahədə quruculuq işləri geniş vüsət almış, iri su anbarları, hidroqovşaqlar tikilib istifadəyə verilmişdir. 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu sahənin inkişafında yeni mərhələ başlanmışdır. Ulu öndərin meliorasiya və su təsərrüfatının inkişafına göstərdiyi diqqət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, hazırda respublikada geniş suvarma sistemlərinə, kollektor-drenaj şəbəkələrinə malik meliorasiya və su təsərrüfatı kompleksi fəaliyyət göstərir".

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov çıxış edərək bildirmişdir ki, su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramının təsis edilməsi ölkə başçısının su təsərrüfatı işçilərinin əməyinə verdiyi qiymət və göstərdiyi diqqətin bariz nümunəsidir. "Azərsu" ASC-nin sədri Azərbaycanın su təsərrüfatı sektorunun böyük tarixi yol keçdiyini xatırladaraq bu sahədə çoxminli işçi ordusunun formalaş-

dığını diqqətə çatdırmışdır: *"İstehlakçıların içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına yönəlmiş layihələrin əsas hissəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin rəhbərliyi ilə Kür və Ceyranbatan su mənbələrindən istifadə sahəsində görülmüş işlər bu gün Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatında müstəsna rol oynayır. Su təsərrüfatı sektorunun iri layihələrindən olan Oğuz-Qəbələ-Bakı magistral su kəməri ulu öndər Heydər Əliyevin ideyası əsasında möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə tikilib istismara verilmişdir. Təməli dövlət başçısı tərəfindən qoyulmuş Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun yaxın vaxtlarda istismara verilməsi ilə Bakı şəhəri və ətraf qəsəbələrin içməli su təchizatı daha da yaxşılaşacaqdır. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq hazırda şəhər və rayon mərkəzlərində içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihələri uğurla davam etdirilir".*

Tədbirin sonunda konfrans iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilmişdir.

İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 4 iyun 2015-ci il.

Su təsərrüfatı və meliorasiya işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə **"Əməkdar mühəndis" fəxri adı** verilsin:

Cabbarov Teyyub Məcid oğlu
Həşimov Ağamir Cəlal oğlu
Məmmədov Etibar Kərim oğlu
Vəkilov Ramiz Moşu oğlu.

Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə təltif edilsinlər:

"Şöhrət" ordeni ilə
Əsgərov Əsgər Əli oğlu

"Tərəqqi" medalı ilə
Abbasov Xalid Əvəz oğlu
Abbasov Məhərləm Mikayıl oğlu
Alqayev Nurəddin Həsən oğlu
Behbudov Elnur Behbud oğlu
Cumartov Zinətulla Niyatulla oğlu
Cümşüdov Böyükkişi İslam oğlu
Əliyev Allahverdi Məhəmmədəli oğlu
Əsgərov Elçin Calal oğlu
Fətullayeva Şəfa İman qızı
Heydərov Şafiq Əhmədağa oğlu
Həsənov Eldəniz Ağayar oğlu
Hüseynov Xürrəm Qabil oğlu
İsmayılov Azər Məmməd oğlu
Qasımov Fərmayıl Abbaşəli oğlu
Qəhrəmanov Ayaz Alı oğlu
Quliyev Habil Səyyaf oğlu
Məmmədov Akif Əli oğlu
Məmmədov Bayram Qədir oğlu
Məmmədov Cavid Əsgər oğlu
Məmmədov Malik Xaləddin oğlu
Muradov Füzuli Baqrat oğlu
Mustafayev Akif Oruc oğlu
Nəsibov Yusif İsmayıl oğlu
Sadiqov Ərəstun İslam oğlu
Sadıqov Saleh Teymur oğlu
Zeynalov Əlqamət Tehran oğlu.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 iyun 2015-ci il.

"Azərsu" ASC-nin 100 əməkdaşı Fəxri Fərmanla təltif olunmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 may 2014-cü il tarixli sərəncamı ilə 5 iyun "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı təsis edilmişdir. Son illər "Azərsu" ASC-nin su təchizatı və tullantı sularının idarə edilməsi sahəsində irimiqyaslı işlər həyata keçirilmiş, bu sahədə böyük nailiyyətlər qazanılmış, uğurlara imza atılmışdır. Bütün bunlar "Azərsu" ASC-nin kollektivinin fədakar əməyi sayəsində əldə edilmişdir.

Fəaliyyətində fərqlənən işçilərin əməyi mütəmadi olaraq qiymətləndirilir. "Azərsu" ASC sədrinin 01 iyun 2015-ci il tarixli 168 nömrəli əmri ilə su təsərrüfatının inkişafında səmərəli fəaliyyət göstərmiş Səhmdar Cəmiyyətin 100 əməkdaşı Fəxri Fərmanla təltif edilmiş və mükafatlandırılmışlar.

Yardımlı rayonunun 4 kəndinin içməli su təchizatı yaxşılaşdırılmışdır

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq içməli su çatışmazlığının müşahidə edildiyi ucqar dağ kəndlərinin su təchizatının yaxşılaşdırılmasına xüsusi diqqət yetirir. Səhmdar Cəmiyyətin Təxirəsalınmaz Tədbirlər Planına uyğun olaraq Yardımlı rayonunun içməli su problemindən əziyyət çəkən Vərgədüz, Osnakəran, Bürzünbül və Bilnə kəndlərinin su təchizatının yaradılması layihəsinin birinci mərhələsinin icrası uğurla başa çatmışdır.

Vərgədüz kəndində içməli suyun verilməsi ilə əlaqədar təşkil olunmuş tədbirdə Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov çətin relyefə malik kəndlərin içməli su probleminin birdəfəlik həll edilməsini böyük hadisə adlandırmış, göstərilən diqqət və qayğıya görə sakinlər adından ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir.

"Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC-nin direktoru Etibar Məmmədov kənd yaşayış məntəqələrinin içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə həyata keçirilən layihələr barədə məlumat vermiş və bu tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırmışdır: ***"Möhtərəm Prezident İlham Əliyevin respublikanın hər bir şəhər və kəndinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq bu istiqamətdə bölgələrdə genişmiqyaslı işlər həyata keçirilir. Yardımlı rayonunun ucqar kəndlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə 2013-cü ilin yayında böyük bir layihənin icrasına başladıq. Bu gün artıq 4 kəndin sakinləri keyfiyyətli içməli su ilə təmin olunurlar, gələcəkdə onların sayı 15-ə çatdırılacaqdır".***

Tədbirdə çıxış edən kənd sakinləri bildirmişlər ki, indiyədək içməli suyu böyük çətinliklərlə uzaq məsafədən müxtəlif vasitələrlə daşıyırdılar. Yeni layihənin icrası nəticəsində bu problem həll edilmişdir.

İcrasına 2013-cü ildə başlanmış layihəyə əsasən su mənbəyi kimi Sineyir çayı hövzəsindəki bulaqlar seçilmişdir. Əhalini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün mənbədə sugötürücü qurğu inşa edilmiş, buradan yaşayış məntəqələrinə qədər müxtəlif diametrli borularla 24 km uzunluğunda magistral kəmər çəkilmişdir. Magistral su xəttinin üzərində Osnakəran kəndində həcmi 500 kubmetr, Bürzünbül və Vərgədüz kəndlərinin hər birində isə tutumu 100 kubmetr olan su anbarları tikilmiş, kəndlərdə bulaqlar quraşdırılmışdır. Layihənin icrası nəticəsində 4 kənddə 6 min nəfərin içməli su təchizatı əsaslı şəkildə yaxşılaşdırılmışdır.

Ümumilikdə layihə Yardımlı rayonunun Osnakəran, Bürzünbül, Vərgədüz, Bilnə, Əngövül, Vərov, Yolacaq, Separadi, Keçələkəran, Bozayran, Dəryavar, Sırıq, Anzov, Hamarkənd və Zəngənə kəndlərini əhatə edir. Layihənin icrası tam başa çatdıqdan sonra Yardımlı rayonunun 15 kəndində 2688 ailə təsərrüfatının və ya 12 min sakinin içməli su təchizatı yaxşılaşdırılacaqdır. Bu məqsədlə yeni xətlərin və anbarların tikintisi layihələndirilmişdir.

Tovuz rayonunun Düz Cırdaxan kəndində həyata keçirilən içməli su layihəsi başa çatmışdır

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təxirəsalınmaz Tədbirlər Planına uyğun olaraq Tovuz rayonunun içməli sudan əziyyət çəkən Düz Cırdaxan kəndinin içməli su təchizatı sistemlərinin yaradılması layihəsinin icrası uğurla başa çatdırılmışdır.

Düz Cırdaxan kəndinə içməli suyun verilməsi ilə bağlı təşkil olunmuş tədbirdə çıxış edən Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov son illər rayonda həyata keçirilən sosial və infrastruktur layihələri barədə məlumat vermiş, içməli su və kanalizasiya layihələrinin əhəmiyyətindən danışmışdır. O, Düz Cırdaxan kəndinin içməli su probleminin həllini böyük hadisə adlandırmışdır.

Tovuz rayonundan millət vəkili seçilmiş Qənirə Paşayeva layihənin başa çatması və kəndə içməli suyun verilməsi münasibətilə sakinləri təbrik edərək, "Azərsu" ASC tərəfindən layihənin icrasının qısa müddətdə başa çatdırılmasını yüksək qiymətləndirmişdir: ***"Düz Cırdaxan kəndinin içməli su probleminin həlli ilə bağlı müraciətimizə "Azərsu" rəhbərliyi müsbət cavab verdi və qısa zamanda lazımi materiallar göndərilərək işlərə başlandı və yerli sakinlərin içməli su problemi birdəfəlik həll olundu".***

"Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC-nin direktoru Etibar Məmmədov bildirmişdir ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya infrastrukturu yenidən qurulur və bu sahədə işlər şəhər mərkəzləri ilə yanaşı, kənd və qəsəbələri də əhatə edir:

"Möhtərəm Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq "Azərsu" ASC-nin sifarişi əsasında hazırda 29 şəhər və rayon mərkəzində su və kanalizasiya layihələri icra olunur. Bu layihələr çərçivəsində rayon mərkəzlərinə yaxın, həmçinin magistral kəmərlərin marşrutu boyunca yerləşən kəndlərin də içməli su təchizatı yaxşılaşdırılır. İçməli su çatışmazlığı müşahidə olunan bəzi kəndlərdə isə təxirəsalınmaz layihələr icra edilir. Tovuz rayonunun Düz Cırdaxan kəndi üçün ötən il layihə işlənib hazırlanmış və qısa müddətdə tikinti-quraşdırma işləri başa çatdırılmışdır".

Tədbirdə çıxış edən kənd sakinləri Düz Cırdaxan kəndinin içməli su probleminin həllinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, 2014-cü ilin yayında icrasına başlanmış layihəyə əsasən, su mənbəyi Tovuzçay seçilmiş və çay yatağında 95 metr uzunluğunda suqəbuledici qurğu (drenaj qurğusu) yaradılmışdır. Su mənbəyindən kəndə çəkilmiş 18,5 km mövcud magistral su xəttinin 3,5 km-lik hissəsi əsaslı şəkildə bərpa edilmiş, kənd ərazisində dik dayaq və bulaq kompleksi quraşdırılmışdır. Layihənin icrası Düz Cırdaxan kəndinin 2816 sakinin içməli su təchizatını yaxşılaşdırmışdır.

"Azərsu" ASC hazırda Tovuz və Qovlar şəhərləri ilə yanaşı, rayonun 13 kənd yaşayış məntəqəsinə xidmət göstərir.

Füzuli rayonunun Yağlıvənd kəndinin içməli su problemi həll edilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti içməli su çatışmazlığının müşahidə olunduğu ucqar kənd və qəsəbələrdə su təchizatının yaxşılaşdırılması məqsədi ilə layihələrin icrasını davam etdirir. Bu sahədə həyata keçirilən tədbirlər sırasında sərhədyanı və cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrinin içməli su probleminin həll edilməsi mühüm əhəmiyyət kəsb edir.

5 iyun "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı ərəfəsində cəbhə bölgəsində yerləşən Füzuli rayonunun Yağlıvənd kəndinin içməli su probleminin həlli məqsədilə "Azərsu" ASC-nin həyata keçirdiyi layihənin icrası uğurla başa çatdırılmışdır.

İyun ayının 4-də Yağlıvənd kəndinə içməli suyun verilməsi ilə bağlı açılış mərasimi keçirilmişdir.

Mərasimdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev kənd sakinlərini əlamətdar gün münasibəti ilə təbrik edərək bildirmişdir ki, Prezident İlham Əliyevin respublikanın hər bir şəhər və kəndinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq Füzuli rayonunda da geniş miqyaslı işlər həyata keçirilir: ***"Rayonun işğaldan azad olunmuş kəndlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə yeni artezian quyuları qazılır, bulaq və kəhrizlər sakinlərin istifadəsinə verilir. Rayonun yaşayış məntəqələrinin keyfiyyətli içməli su ilə təmin olunması istiqamətində işlər davam etdirilir".***

"Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC direktorunun birinci müavini Vəli Həsənov regionların sosial-iqtisadi inkişafı dövlət Proqramlarına uyğun olaraq bölgələrdə, xüsusilə sərhədyanı kəndlərdə içməli su təchizatının yaxşılaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirmişdir: ***"Cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrində əhalinin sosial-iqtisadi problemlərinin həlli ölkə rəhbərliyinin diqqətindədir. Cənab Prezident İlham Əliyev cəbhə bölgəsində və sərhədyanı kəndlərdə su təchizatı infrastrukturlarının yaradılması ilə bağlı ciddi tapşırıqlar vermişdir. Füzuli rayonunun Yağlıvənd kəndinin sakinləri uzun illərdir içməli sudan əziyyət çəkirdi və yay aylarında su çatışmazlığı özünü daha kəskin göstərirdi. Bunları nəzərə alaraq Yağlıvənd kəndində yeni layihənin icrasına başlanıldı və qısa müddətdə işlər başa çatdırıldı".***

Tədbirdə çıxış edən kənd sakinləri içməli su probleminin həllinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildirmişdirlər.

Qeyd edək ki, Yağlıvənd kəndinin içməli su təchizatının yaxşılaşdırılması layihəsinin icrasına 2014-cü ilin payızında başlanmışdır. Layihə çərçivəsində 1 ədəd subartezian quyusu qazılmış, 150 mm diametrli polietilen borularla 1,5 km magistral su xətti çəkilmişdir. Kənd daxilində 17 yerdə bulaqlar quraşdırılmışdır. Layihənin icrasının başa çatması nəticəsində 1650 nəfərin içməli su təchizatı yaxşılaşdırılmışdır.

Ramazanda orqanizmin suya olan tələbatı necə ödənməli?

Bu il də Ramazan ayı isti günlərə təsadüf edir. Bu səbəbdən oruc tutanlar isti havada su itkisinə qarşı diqqətli olmalıdırlar. Kəskin istilərin müşahidə olunduğu günlərdə tərləmə su itkisini artırır və insan gün ərzində təxminən 2,5 litr su itirir. İsti havalarda çox fiziki hərəkət etdikdə orqanizmin suya olan tələbatı daha da artır. Odur ki, orqanizmin su tələbatının ödənilməsinə həssas yanaşmaq lazımdır.

Ümumiyyətlə, orqanizmdə su balansının qorunması üçün qidanlanma ilə yanaşı, yuxu, fiziki aktivlik kimi amillərə də diqqət yetirilməsi tövsiyə olunur. Bəs susuzluq yaşanmasın deyə nə edə bilərik? Mütəxəssislər iftar və imsak saatları arasında, çobanyastığı, razyana, ada çayı kimi bitki çaylarından, süd, ayran, şorba, kompot, təzə sıxılmış meyvə və tərəvəz suyundan daha çox istifadə etmələrini məsləhət görür.

Oruc tutulan günlərdə iftar və imsaq arasında maye qəbulunu artırmağı məsləhət görülür. Adi günlərdə sutka ərzində 2 litr su içildiyi halda orucluq müddətində qəbul olunan suyun miqdarını 2-3 dəfə artırılmalsı tövsiyə olunur. Amma nəzərə almaq lazımdır ki, çay və qəhvə adi sudan fərqli olaraq orqanizmin tələbatını tam ödəmir. Ramazan ayını sağlam keçirmək üçün ağır yeməklər, şərbət, şiriniyyat, xəmir xörəkləri və s. qidalardan uzaq durmaq tövsiyə olunur. İmsaqda susuzluğu artıran duzlu yeməklərdən uzaq durmaq lazımdır. Belə ki, imsaq vaxtı yeyilən zeytun və pendirin duzlu olması, ertəsi gün su ehtiyacını artırır. İmsaqda maye ehtiyacını aradan qaldırmaq üçün bol miqdarda içilən çay nəticədə bədəni susuz saxlayır. Bu səbəblə imsaqda çay yerinə adi su içmək məsləhət görülür.

İftarda orucun bir stəkan su ilə açılmasını, sonra sulu yemək və salat yeyilməsini məsləhət görən mütəxəssislər bunun ilk növbədə orqanizmin su təminatını tənzimlədiyi qənaətindədir. İftarın məhz su ilə açılması mütləq olmasa da əvvəlcə suyun içilməsi mədə və digər həzm orqanlarına rahatlıq gətirir, ağırlıq hallarını aradan qaldırır.

Suyun əhəmiyyəti elə böyükdür ki, ibadətimizdə də su və yeməklə sınanırıq. Sudan bir az uzaqlaşacağımız Ramazan günlərində sağlamlığınız üçün həm imsaqda, həm də iftarda bol su için. Meyliniz çəkməsə belə su qəbulunda məsuliyyətsizlik etməyin.

Müqəddəs Ramazan günlərində oruc tutan insanlarda bu ibadətə sevgidən yaranan iradə müşahidə edilir. Belə ki, adi günlərdən fərqli olaraq Ramazan ayında günün təxminən 17 saatını ac və susuz keçirən insanlar ciddi narahatlıq hissi yaşamırlar. Çünki, insan bu ibadəti Allah rizasını qazanmaq və Onun əmrinə sədaqətini göstərmək üçün yerinə yetirir. Bu ibadətin bəxş etdiyi sevinc hissi bədəndə möcüzəvi şəkildə dözüm yaradır və insan qızmar günəş altında belə susuz qala bilir.